azərsu

“AZƏRSU” AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

# BÜLLETEN

№ 08 (24) • Avqust 2014-cü il www.azersu.az Qaynar xətt - 955

“Su həyat deməkdir, təmiz su sağlam həyat deməkdir”

*İlham Əliyev*

# İnsanlar təmiz, Dünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su ilə təmin olunacaqlar

***Prezident İlham Əliyev:*** *“İnfrastruktura qoyulan investisiyalar artıq Beyləqan rayonunda canlanmaya gətirib çıxarmışdır”* *səh. 2*

## Şəkidə şimal-qərb bölgəsi üzrə regional müşavirə keçirilmişdir

*səh. 3*

## İçməli su və kanalizasiya sistemlərinə qoşulmaq üçün texniki şərtlərin verilməsi qaydaları təsdiq edilmişdir

*səh. 6*

## Göygöl-Gəncə magistral su xətti sentyabrda istismara veriləcək

*səh. 8*

# İnsanlar təmiz, Dünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su ilə təmin olunacaqlar

## *Prezident İlham Əliyev: "İnfrastruktura qoyulan investisiyalar artıq Beyləqan rayonunda canlanmaya gətirib çıxarmışdır"*

Avqustun 28-də Prezident İlham Əliyev Beyləqan rayonunda səfərdə olmuşdur. Səfər çərçivəsində dövlət başçısı Heydər Əliyev Parkında ümummilli liderin abidəsini ziyarət etmiş, məzarı önünə gül dəstələri qoymuşdur. Sonra Prezident İlham Əliyev Beyləqanda Gənclər Mərkəzinin açılışında iştirak etmiş rayon gənclərinin və ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdür. Prezident İlham Əliyev Beyləqan rayonuna səfəri çərçivəsində şahmat məktəbinin, uşaq bağçasının açılışlarında iştirak etmişdir. Dövlət başçısı Beyləqanda əsaslı təmir və yenidənqurmadan sonra Mərkəzi Şəhər Stadionunda yaradılmış şəraitlə tanış olmuş, Birinci Şahsevən-Əhmədli-Dünyamalılar kəndlərini birləşdirən avtomobil yolunun istifadəyə verilməsi mərasimində iştirak etmişdir.

Beyləqanda Gənclər Mərkəzinin açılışında iştirak edən dövlət başçısı mərkəzlə tanışlıqdan sonra rayon gəncləri və ictimaiyyət nümayəndələri ilə görüşmüşdür. Prezident İlham Əliyev dövlət başçısı kimi Beyləqan rayonuna üçüncü dəfə səfər etdiyini xatırladaraq əvvəlki səfərlərdə də bir sıra mühüm obyektlərin açılışlarının olduğunu diqqətə çatdırmışdır. Prezident İlham Əliyev Beyləqan rayonunun böyük iqtisadi potensialının olduğunu bildirmiş və əlavə etmişdir ki, rayon iqtisadiyyatı daha çox kənd təsərrüfatı ilə bağlı olduğundan burada aqrar sahənin inkişafı üçün geniş imkanlar var. Son illər Beyləqanda həyata keçirilən infrastruktur layihələri çərçivəsində əhalinin elektrik enerjisi, mavi yanacaqla təminatı yaxşılaşır, yeni avtomobil yolları salınır, müasir tələblərə cavab verən sosial obyektlər istifadəyə verilir. Prezident İlham Əliyev rayon əhalisinin içməli su təchizatının və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılacağını bildirmişdir: ***"Burada böyük imkanlar vardır. Eyni zamanda həyata keçirilən içməli su və kanalizasiya layihəsi də böyük sosial layihədir. Çünki insanlar təmiz, Dünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su ilə təmin olunacaqlar.***

***Azərbaycan xalqı yaxşı yaşamağa layiqdir və yaxşı yaşamalıdır. İqtisadi, sosial cəhətdən təmin olunmalıdır. Çətin vəziyyətdə olanlar üçün sosial proqramlar icra edilir. Kasıb ailələr dövlətdən müavinət alırlar. Biz iş yerləri yaradırıq ki, insanlar işlə təmin olunsunlar. Yoxsulluq azalsın, yoxsul olmasın, imkanlar olsun və imkanlar var. İnvestisiyalar qoyulacaq. İnfrastruktura qoyulan investisiyalar artıq Beyləqan rayonunda da canlanmaya gətirib çıxarmışdır".***

Rayon ictimaiyyətinin nümayəndələri Beyləqanda həyata keçirilən içməli su və kanalizasiya layihələrinin icrasından razılıqlarını ifadə etmişlər.

Qeyd edək ki, Prezident İlham Əliyevin Beyləqan rayonuna 2012-ci ildə etdiyi səfər çərçivəsində oktyabr ayının 28-də Beyləqan şəhərinin su və kanalizasiya sistemləri kompleksinin təməli qoyulmuşdur.

Beyləqan şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması Azərbaycan hökuməti və Asiya İnkişaf Bankının birgə maliyyələşdirdiyi "Su təchizatı və kanalizasiya investisiya proqramı" çərçivəsində həyata keçirilir. Layihə 2035-ci ilə qədər perspektiv inkişaf nəzərə alınmaqla 25 mindən artıq sakinin su təchizatını əsaslı şəkildə yaxşılaşdırılmasını, eyni zamanda rayon mərkəzində yeni kanalizasiya sisteminin yaradılmasını nəzərdə tutur. Layihəyə əsasən, Beyləqan şəhərini içməli su ilə təmin etmək üçün Əlinəzərli kəndi yaxınlığında 5 ədəd subartezian quyusu qazılmışdır. Quyu ərazisində hər birinin tutumu 500 kubmetr olan 2 ədəd su anbarının, xlorator binası və nasos stansiyasının tikintisi davam etdirilir. Su mənbəyindən Beyləqan şəhərinə 450 mm diametrli polietilen borularla 8,6 km magistral su xətti çəkilmişdir. Əhalini dayanıqlı və keyfiyyətli içməli su ilə təmin etmək məqsədilə 91 km şəhərdaxili içməli su, 89 km uzunluğunda kanalizasiya xəttinin tikintisi yekunlaşmaq üzrədir. Beyləqan şəhərində içməli su və kanalizasiya şəbəkələrinin tikintisinin 2014-cü ilin sonuna qədər başa çatdırılması nəzərdə tutulur.

# Şəkidə şimal-qərb bölgəsi üzrə regional müşavirə keçirilmişdir

## Qorxmaz Hüseynov: *"Əsas məqsədimiz istehlakçıların su təchizatının dayanıqlığına nail olmaq və onlara keyfiyyətli xidmət göstərməkdir"*

***Avqustun 26-da Şəki şəhərində respublikanın şimal-qərb bölgəsi üzrə əhalinin içməli su təchizatının vəziyyəti, cari məsələlər və qarşıda duran vəzifələrə həsr olunmuş regional müşavirə keçirilmişdir. Tədbirdə "Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov, idarə və müəssisələrin rəhbər və məsul işçiləri, "Şəki Sukanal" TSC-nin direktoru, Balakən, Zaqatala, Qax, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Qobustan Sukanal İdarələrinin rəisləri iştirak etmişdir.***

Əvvəlcə müşavirə iştirakçıları Şəki şəhərini içməli su ilə təmin edən Kiş çayı və Qurcana su mənbələrində olmuş, son vaxtlar müşahidə olunan isti hava şəraitində mənbələrin məhsuldarlıq imkanlarına diqqət yetirmişlər. Eyni zamanda Şəki şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi çərçivəsində görülmüş işlərə baxış keçirilmişdir.

"Şəki Sukanal" TSC-nin inzibati binasında keçirilən müşavirədə əhalinin içməli su təchizatının mövcud vəziyyəti, 2014-cü ildə müşahidə olunan quraqlığın su mənbələrinə təsiri, əhalinin su təchizatının dayanıqlığını təmin etmək üçün görülən tədbirlər, rayon mərkəzlərində su və kanalizasiya infrastrukturunun yenidən qurulması layihələrinin icra vəziyyəti və cari məsələlər ətrafında geniş müzakirələr aparılmışdır.

"Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov bildirmişdir ki, 2014-cü ilin yay mövsümü kəskin istilərlə və quraqlıqla müşahidə olunmaqdadır. ***"Son vaxtlar havaların kəskin istiləşməsi quraqlıqla müşahidə olunur. Bu da öz növbəsində çaylarda sululuğun kəskin azalmasına və içməli su mənbələrinin bir qisminin məhsuldarlığının aşağı düşməsinə səbəb olmuşdur. Bütün bunlara baxmayaraq, "Azərsu" ASC tərəfindən istehlakçıları içməli su ilə təmin etmək üçün təxirəsalınmaz işlər görülür və problemlərin yaranmaması üçün qabaqlayıcı tədbirlər həyata keçirilir. Havalar isti və quraq keçsə də, bu gün istər Bakı şəhəri və bütövlükdə Abşeron yarımadasının, istərsə də regionların içməli su təchizatı normal qaydada təmin olunur. Təbii şəraitdən asılı olmayaraq əsas məqsədimiz istehlakçıların su təchizatının dayanıqlığına nail olmaq və onlara keyfiyyətli xidmət göstərməkdir".***

Daha sonra yerli sukanal idarələrinin rəisləri çıxış edərək xidmət göstərdikləri rayonlarda əhalinin içməli su təminatının vəziyyəti, bu məqsədlə görülmüş işlər və qarşıda duran vəzifələr barədə məlumat verdilər. Çıxışlardan məlum oldu ki, "Azərsu" ASC tərəfindən xidmət göstərilən yaşayış məntəqələrində yay mövsümündə ciddi problem yaşanmasa da qabaqlayıcı tədbir kimi bəzi işlərin görülməsi planlaşdırılır.

"Birləşmiş Sukanal" MMC-nin direktoru Etibar Məmmədov bildirdi ki, isti yay aylarında rayon mərkəzləri, kənd və qəsəbələrin su təchizatının dayanıqlığını təmin etmək üçün qurumun mütəxəssisləri bölgələrə ezam olunur və qısa müddətdə lazımi tədbirlər görülür.

"Sukanal" ETLİ-nin direktor müavini, geologiya-mineralogiya elmləri doktoru Adışirin Ələkbərov çaylarda və su mənbələrində mütəmadi monitorinqlərin aparıldığını, təhlillər üçün məlumatların toplandığını qeyd etdi.

Müşavirədə həmçinin rayon mərkəzləri və şəhərlərdə kanalizasiya sistemlərinin mövcud vəziyyəti, tullantı sularının idarə olunması, sukanal idarələrinin nəqliyyat və xüsusi texnikalarla təminatı, yerli infrastrukturların idarəedilməsi məqsədi ilə peşəkar kadrların işə cəlbi və işçilərin təlimlərə göndərilməsi ilə bağlı geniş müzakirələr aparılmışdır.

"Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov isti yay günlərində əhalinin içməli su ilə təminatı üçün bütün qüvvələrin səfərbər olunması, su və kanalizasiya infrastrukturunun yenidən qurulması çərçivəsində tikinti-quraşdırma işlərinin sürətləndirilməsi üçün müvafiq tapşırıqlar vermişdir.

Müşavirədən sonra "Azərsu" ASC-nin sədri və mütəxəssislər Oğuz-Qəbələ-Bakı su kəmərini içməli su ilə təmin edən quyu sahəsində də olmuş və əraziyə baxış keçirilmişdir.

# Gəncədə "Regional təlim inkişaf proqramı-1" çərçivəsində təlimlərə başlanılmışdır

***Avqustun 19-da Gəncə şəhərində "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin "Regional Təlim İnkişaf Proqramı-1" çərçivəsində Qərb zonası üzrə "Kompleks Təlim Proqramı"nın rəsmi açılışı olmuşdur. Açılış mərasimində "Azərsu" ASC-nin, Gəncə Şəhər İcra Hakimiyyətinin, Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə bölməsinin, ali təhsil müəssisələrinin əməkdaşları, ziyalılar və KİV nümayəndələri iştirak etmişlər.***

Tədbir iştirakçıları əvvəlcə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Gəncə şəhərində ucaldılmış abidəsini ziyarət etmiş, məzarı önünə gül dəstələri qoymuşlar.

Sonra Gəncə şəhərində yeni inşa edilmiş Heydər Əliyev Mərkəzi və Park Kompleksi, "Azərsu" ASC-nin fəaliyyəti ilə bağlı videoçarxlar nümayiş etdirilmişdir.

Açılış mərasimində çıxış edən Gəncə Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Mikayıl Zeynalov bölgələrdə həyata keçirilən içməli su və kanalizasiya infrastrukturlarının yenidən qurulması layihələrinin əhalinin sosial rifahının yaxşılaşdırılmasına xidmət etdiyini bildirmişdir. O, Gəncə şəhərində içməli su və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin icra olunduğunu xatırladaraq tikinti-quraşdırma işlərinin intensiv şəkildə həyata keçirildiyini vurğulamışdır.

**"Azərsu" ASC-nin sədrinin istismar üzrə müavini Köçərli Həsənov** bildirmişdir ki, Səhmdar Cəmiyyətin fəaliyyətində beynəlxalq təcrübə, qabaqcıl texnologiyalar, müasir innovativ idarəetmə, informasiya resurslarından səmərəli istifadə prioritet təşkil edir. "Bütün bunlar nəzərə alınaraq Cəmiyyətin mütəxəssisləri mütəmadi olaraq ölkə daxilində və xaricdə təşkil olunan təlimlərə cəlb edilir. Bu prosesin davamı olaraq "Azərsu" ASC "Regional Təlim İnkişaf Proqramı-1" çərçivəsində respublikanın regionlarında fəaliyyət göstərən idarə və müəssisələrində

işçilərin peşəkarlığının artırılması məqsədilə kompleks təlim proqramları həyata keçirir. Kadr hazırlığı işinin yüksək səviyyədə təşkil edilməsi üçün hazırda Bakı şəhərində yeni Təlim Mərkəzi inşa edilir və cari ilin sonuna qədər mərkəz fəaliyyətə başlayacaq".

**"Azərsu" ASC-nin "Birləşmiş Sukanal" MMC-nin direktoru Etibar Məmmədov** qeyd etmişdir ki, Prezident İlham Əliyevin hər bir şəhər və kəndin 24 saat fasiləsiz və keyfiyyətli içməli su ilə təmin edilməsi barədə tapşırıqlarına uyğun olaraq bölgələrdə genişmiqyaslı işlər həyata keçirilir: "Möhtərəm Prezidentin tapşırığına

uyğun olaraq istehlakçıların 24 saat fasiləsiz və keyfiyyətli içməli su ilə təmin edilməsi istiqamətində layihələr icra olunur. Bu layihələrin icrası zamanı yeni laboratoriyalar yaradılır, müasir texnoloji avadanlıqlar quraşdırılır. Yeni infrastrukturu idarə etmək üçün peşəkar kadrların hazırlanması prioritet kimi müəyyənləşdirilmişdir. Həyata keçirilən təlim proqramları yerli sukanal idarələrində çalışan işçilərin bilik və bacarıqlarının artırılmasına xidmət edəcəkdir".

**"Azərsu" ASC-nin İşlər İdarəsinin rəis müavini Rahid Fətəlizadə** isə bildirmişdir ki, "Regional Təlim-İnkişaf Proqramı-1" çərçivəsində

7 regionda təlimlərin keçirilməsi planlaşdırılır: "Ümumilikdə 1500 işçinin 9 istiqamət üzrə təlimlərdə iştirakı nəzərdə tutulub. İndiyə qədər Quba, Lənkəran · və Şamaxıda belə təlimlər keçirilmişdir. Növbəti təlimlər respublikanın qərb bölgəsini əhatə etməklə Gəncə şəhərində keçirilir. Bu təlimlərdə 11 rayondan 263 işçinin iştirakı nəzərdə tutulmuşdur".

Cari ilin sentyabr ayının ortalarınadək davam edəcək təlimlər seminar və praktiki məşğələlər formasında keçirilir. Təlimləri müvəffəqiyyətlə başa vurmuş işçilər "Azərsu" ASC-nin "Daxili təlimçilərin təlimi" layihəsi üzrə namizədlərin seçilməsi və hazırlanması layihəsinə cəlb olunacaqlar.

Təlim müddətində iştirakçıların asudə vaxtlarının səmərəli təşkili üçün müxtəlif sosial proqramlar həyata keçiriləcəkdir.

# Vakant yerlərə qəbul olmaq istəyənlərin bilikləri qiymətləndirilir

"Azərsu" Açıq Səhmdar Cəmiyyəti su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihələrinin keyfiyyətli icrasını təmin etmək üçün yüksək ixtisaslı mütəxəssislərin işə qəbuluna xüsusi önəm verir. Son vaxtlar regionlarda istismarda olan, layihələndirilən və tikilməkdə olan içməli su və kanalizasiya sistemlərində təmirçi çilingər, nasos qurğularının maşinisti, xlorator qurğusunun operatoru, elektrik qaz qaynaqçısı, elektrik montyoru, kəmər baxıcısı peşələri üzrə işçilərə ehtiyac yaranmışdır. Bununla əlaqədar "Gəncə Sukanal" və "Şəki Sukanal" Törəmə Səhmdar Cəmiyyətləri, Şirvan, Biləsuvar, Hacıqabul, Ağsu, Kürdəmir, Qazax, Mingəçevir sukanal idarələri üzrə vakant yerlərə işçi qəbulu ilə bağlı elanlar verilmişdir. Ötən müddət ərzində müxtəlif peşələr üzrə şəhər və rayonlardan 120-dək müraciət qəbul edilmişdir.

"Azərsu" ASC-nin İşə qəbul və testləşdirmə şöbəsinin mütəxəssisləri Gəncə, Ağsu və Şəki şəhərlərində namizədlərlə görüşmüş və onların peşə bilik səviyyələrini qiymətləndirmişlər. Biliklərin qiymətləndirilməsi zamanı 98 namizəddən 38 nəfər müvəffəqiyyət qazanmış və həmin şəxslər Cəmiyyətin "Kadr Ehtiyat Bazası"na daxil edilmişdir. Hazırda həmin şəxslərin zərurət olan müvafiq vakant iş yerlərinə təyinatı istiqamətində tədbirlər görülür.

Qeyd edək ki, "Azərsu" ASC-də yeni işçilərin işə qəbulu biliklərin qiymətləndirilməsi yolu ilə həyata keçirilir. Biliklərin qiymətləndirilməsinin birinci mərhələsi test imtahanı, ikinci mərhələsi isə "Azərsu" ASC-nin mütəxəssislərindən ibarət qrup tərəfindən keçirilən fərdi müsahibədən ibarətdir.

# İçməli su və kanalizasiya sistemlərinə qoşulmaq üçün texniki şərtlərin verilməsi qaydaları təsdiq edilmişdir

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 avqust 2014-cü il tarixli 275 saylı qərarı ilə "İstehlakçıların su təchizatı və tullantı sularının axıdılması sisteminə qoşulması üçün texniki şərtlərin verilməsi və qoşulması Qaydaları" təsdiq edilmişdir. Qərar Azərbaycan Respublikası Prezidentinin "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2011-ci il 18 mart tarixli 90-IVQD nömrəli Qanununun tətbiqi və "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 26 yanvar tarixli 266 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2011-ci il 20 aprel tarixli 423 nömrəli Fərmanının 1.4-cü bəndinin və "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununa, "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununa və "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının 2010-cu il 2 aprel tarixli 980-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında" 2010-cu il 24 may tarixli 262 nömrəli Fərmanının 1.5-ci bəndinin icrasını təmin etmək məqsədi ilə verilmişdir.

*Qərarın tam mətni ilə www.cabmin.gov.az və www.azersu.az saytlarında tanış ola bilərsiniz.*

# Texniki şərtlər "Sukanal" Elmi Tədqiqat və Layihə İnstitutu tərəfindən verilir




"Azərsu" Açıq Səhmdar Cəmiyyəti istehlakçıların içməli su və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılması istiqamətində kompleks tədbirləri davam etdirir. Son illər Bakı şəhəri və Abşeron yarımadasında, eləcə də regionlarda yeni su təchizatı və kanalizasiya infrastrukturlarının yaradılması xidmət göstərilən abunəçilərin əhatə dairəsinin genişlənməsinə səbəb olmuşdur. Bunun nəticəsində mərkəzləşdirilmiş su təchizatı və kanalizasiya sistemlərinə qoşulan abunəçilərin sayında ciddi artım müşahidə olunur.

Su təchizatı sistemlərinin effektiv idarə olunması və istehlakçılara göstərilən xidmətlərin keyfiyyətinin artırılması məqsədi ilə 01 avqust 2014-cü il tarixdən texniki şərtlərin hazırlanması və təqdim olunması "Azərsu" ASC-nin "Sukanal" Elmi Tədqiqat və Layihə İnstitutu tərəfindən həyata keçirilir. Su təchizatı və kanalizasiya şəbəkələrinə qoşulma ilə əlaqədar texniki şərt almaq üçün əhali və qeyri-əhali qrupu abunəçiləri Bakı şəhəri Moskva prospekti 67 ünvanında yerləşən "Sukanal" Elmi Tədqiqat və Layihə İnstitutuna müraciət edə bilər.

Texniki şərt almaq üçün ərizə ilə müraciət edildikdən sonra sifarişçinin su təchizatı və kanalizasiya sistemlərinə qoşulacaq fərdi yaşayış evinə və ya torpaq ayırma sənədlərində göstərilən əraziyə yerində baxış keçirilir, birləşmənin eskizi hazırlanır. "Su təchizatı və kanalizasiya sistemlərinə qoşulmaq üçün texniki şərtlərin verilməsi" Qaydalarının tələblərinə uyğun olaraq müvafiq texniki şərt təsdiq üçün təqdim edilir. Texniki şərtlərin hazırlanması və təsdiq edilməsi operativ şəkildə həyata keçirilir.

# 2013-cü ilin maliyyə hesabatı müsbət audit rəyi almışdır

ERNST & YOUNG

"Azərsu" Açıq Səhmdar Cəmiyyətində Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına keçid istiqamətində işlər davam etdirilir. Beynəlxalq standartların tətbiqi Səhmdar Cəmiyyətin maliyyə-təsərrüfat vəziyyəti barədə beynəlxalq təşkilatlara və maliyyə institutlarına, dövlət orqanlarına, ictimaiyyətə dürüst və etibarlı məlumatların ötürülməsini və bu sahədə şəffaflığı təmin edir.

2013-cü ilin maliyyə hesabatı beynəlxalq standartların tələblərinə uyğun şəkildə hazırlanmışdır. Hesabat dünyanın nüfuzlu auditor şirkətlərindən sayılan "Ernst &Young" tərəfindən audit edilmiş və müsbət rəy almışdır. Maliyyə hesabatı müstəqil auditorun rəyi ilə birlikdə maliyyə institutlarına və aidiyyatı dövlət orqanlarına təqdim olunmuşdur.

Qanunvericiliyə uyğun olaraq maliyyə hesabatlarında təqdim olunmuş informasiyadan sərbəst istifadəni təmin etmək məqsədilə "Azərsu" ASC-nin 31 dekabr 2013-cü il tarixində başa çatan il üzrə konsolidasiya olunmuş maliyyə hesabatları auditor rəyi ilə birlikdə Səhmdar Cəmiyyətin internet səhifəsində yerləşdirilmişdir.

Hesabatlarda Səhmdar Cəmiyyətin maliyyə - təsərrüfat fəaliyyətini dürüst, etibarlı şəkildə əks etdirən informasiya, o cümlədən aktivlərin və öhdəliklərin ədalətli dəyəri, artan yekunla gəlirlər, xərclər və maliyyə nəticələri, pul vəsaitlərinin axını (hərəkəti), kapitalda hesabat dövrü ərzində baş vermiş dəyişikliklər öz əksini tapmışdır.

Qeyd edək ki, 01 yanvar 2012-ci il tarixindən "Azərsu" ASC-də mühasibat uçotunun Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) əsasən aparılması qərara alınmışdır. MHBS-ya keçidlə əlaqədar "Ernst &Young" məsləhətçi şirkət seçilmiş, konsolidasiya sistemlərinin avtomatlaşdırılması üçün 1C proqramının tətbiqinə başlanılmış, metodoloji və təşkilati işlər həyata keçirilmişdir.

Cəmiyyətin Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının tətbiqi istiqamətində həyata keçirdiyi siyasət və atdığı addımlar nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilmişdir.

# Kəlbəcər Sukanal İdarəsi yaradılmışdır

"Azərsu" Açıq Səhmdar Cəmiyyəti qaçqın və məcburi köçkünlərin içməli su və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılması istiqamətində kompleks tədbirləri davam etdirir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qaçqın və məcburi köçkünlərə göstərdiyi diqqət və qayğı nəticəsində məcburi köçkünlərin sıx məskunlaşdığı ərazilərdə yeni infrastruktur layihələri həyata keçirilmiş, onların mənzil şəraiti yaxşılaşdırılmışdır. Bu istiqamətdə tədbirlərin davamı olaraq məcburi köçkünlərə göstərilən içməli su və kanalizasiya xidmətlərinin yaxşılaşdırılması mühüm əhəmiyyət kəsb edir.

Qaçqın və məcburi köçkünlərin həyat və məişət şəraitinin yaxşılaşdırılması çərçivəsində Gəncə şəhərində Kəlbəcər rayonundan olan 14199 nəfərdən ibarət 4663 məcburi köçkün ailəsi üçün yeni qəsəbə salınmışdır. Qəsəbədə içməli su və kanalizasiya şəbəkələri yaradılmış, sakinləri fasiləsiz su ilə təmin etmək üçün su xətti çəkilmişdir.

Məcburi köçkünlərin məskunlaşdığı qəsəbədə istehlakçılara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, yeni yaradılmış şəbəkələrin istismarı və səmərəli istifadə olunmasını təmin etmək məqsədi ilə "Birləşmiş Sukanal" Məhdud Məsuliyyətli Cəmiyyətinin tabeliyində Kəlbəcər Sukanal İdarəsi yaradılmışdır. Məcburi köçkün qəsəbəsinin mövcud su təchizatı və kanalizasiya sistemləri yeni yaradılmış qurumun balansına verilmişdir.

# Göygöl-Gəncə magistral su xətti sentyabrda istismara veriləcək

***Azərbaycan hökuməti və Almaniya İnkişaf Bankının (KFW bankı) birgə maliyyələşdirdiyi "II Açıq Kommunal İnfrastruktur Proqramı" çərçivəsində Gəncə şəhərində həyata keçirilən içməli su və kanalizasiya sistemlərinin yenidən qurulması üzrə işlərinin birinci mərhələsi yekunlaşmışdır.***

Layihənin ilkin mərhələsində su mənbələrinin bərpası və magistral su xətlərinin çəkilişi işləri aparılmışdır. Gəncə şəhərinin relyefi və perspektiv inkişafı, həmçinin əhalinin tələbatı nəzərə alınaraq müxtəlif mənbələrdən suyun gətirilməsi məqsədəuyğun hesab edilmişdir. Bu məqsədlə şəhəri içməli su ilə təmin edəcək 3 su mənbəyi – Göygöl və Qızılqaya drenaj sistemləri, həmçinin Şəmkirçay su anbarı seçilmişdir.

Layihənin birinci mərhələsi çərçivəsində Göygöl su mənbəyi üzrə tikinti-quraşdırma işləri yekunlaşmaq üzrədir. Bu mərhələdə su mənbəyində məhsuldarlığı saniyədə 200 litr olan drenaj sistemi bərpa edilmiş, tutumu 4000 kubmetr olan 1 ədəd su anbarı inşa edilmiş və su mənbəyindən anbaradək 24,5 km uzunluğunda magistral su kəməri çəkilmişdir. Bu mənbə hesabına Gəncə şəhərinin 20 faizi və ya 63 min nəfər sakini 24 saat fasiləsiz və keyfiyyətli içməli su ilə təmin olunacaqdır. Yaxın günlərdə Gəncə şəhərinə bu mənbədən içməli suyun verilməsinə başlanılacaqdır.

Şəhəri içməli su ilə təmin edən digər mənbədə - Qızılqayada bərpa işləri həyata keçirilmiş, 1 ədəd 2000 kubmetrlik su anbarı tikilmiş, 9,5 km anbarlararası su xətləri çəkilmişdir. Ümumi həcmi 10 min kubmetr olan 2 ədəd yeni su anbarının tikintisi isə yekunlaşmaq üzrədir.

Gəncə şəhərinin içməli su tələbatının təxminən 60 faizi Şəmkirçay su anbarından təmin ediləcək. Anbardan götürüləcək su 27,5 km uzunluğunda magistral kəmərlə Qızılqaya ərazisində inşa edilən və sutkalıq məhsuldarlığı 17 min kubmetr olan sutəmizləyici qurğuya ötürüləcəkdir. Hazırda magistral su kəmərinin inşası davam etdirilir.

Su mənbələri və magistral xətlərin yenidən qurulması ilə yanaşı Gəncə şəhərində içməli su və kanalizasiya şəbəkələrinin tikintisinə başlanılmışdır. Layihəyə əsasən inşası nəzərdə tutulan 576 km uzunluğunda paylayıcı su xəttinin 30 km-lik, 582 km uzunluğunda kanalizasiya şəbəkəsinin isə 32 km-lik hissəsi çəkilmişdir. Gələcəkdə Gəncə şəhərində yaranacaq tullantı suları yeni tikiləcək çirkab sutəmizləyici qurğuda təmizlənərək zərərsizləşdiriləcəkdir.

Gəncə şəhərində çoxmərtəbəli yaşayış binalarına smart-kart tipli su sayğaclarının quraşdırılmasına da başlanılmışdır. İndiyədək 119 binada 7 minə qədər abunəçi smart-kart sayğaclarla təmin olunmuşdur.

Gəncə şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsindən 2035-ci ilədək perspektiv inkişaf nəzərə alınmaqla 450 min nəfər faydalanacaqdır.

Qeyd edək ki, hazırda 350 min nəfər əhalisi olan Gəncə şəhərində 156 min nəfər mərkəzləşmiş qaydada içməli su alır. Əhalinin qalan hissəsi kəhriz və subartezianlardan istifadə edir və ya suyu maşınlarla alır. İçməli su şəhərin müxtəlif ərazilərinə fərqli qrafiklər əsasında verilir. Mövcud kanalizasiya şəbəkəsi şəhərin təxminən yarısını əhatə edir.

*"Azərsu" Açıq Səhmdar Cəmiyyəti Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair dövlət proqramlarına uyğun olaraq bölgələrdə su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması istiqamətində kompleks tədbirləri davam etdirir. Dövlət büdcəsi hesabına maliyyələşdirilən layihə çərçivəsində Mingəçevir şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması üzrə işlərin böyük hissəsi yekunlaşmışdır.*

# Mingəçevirdə yeni içməli su və kanalizasiya şəbəkələri yaradılır

İcrasına 2011-ci ilin oktyabrında başlanmış "Mingəçevir şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi" 2035-ci ilə qədər perspektiv inkişaf nəzərə alınmaqla 151 min nəfərin içməli su və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanmışdır.

Layihəyə əsasən, Mingəçevir şəhərinə içməli suyun özüaxımlı rejimdə verilməsi üçün hər birinin tutumu 10 min kubmetr olan 3 ədəd su anbarı tikiləcək. Şəhərin su və kanalizasiya şəbəkələri tamamilə yenidən qurulur. Ümumi uzunluğu 275 km olan şəhərdaxili su şəbəkəsinin 180 km-lik hissəsində işlər başa çatmış 7100 ünvana birləşmələr verilmişdir. Bununla paralel olaraq, 232 km kanalizasiya şəbəkəsinin isə 70 km-lik hissəsində işlər yekunlaşmışdır. Gələcəkdə tullantı suları şəhərin kənarında tikiləcək və məhsuldarlığı sutkada 60 min kubmetr layihələndirilən çirkab sutəmizləyici qurğuda təmizlənərək zərərsizləşdiriləcəkdir.

İçməli su və kanalizasiya xidmətlərindən istifadənin dəqiq uçotunun aparılması məqsədi ilə smart-kart tipli sayğacların quraşdırılması da davam etdirilir və indiyə qədər 30 211 abunəçinin 3500-i sayğacla təmin olunmuşdur.

Qeyd edək ki, hazırda 100 min nəfərdən çox olan əhalisi olan Mingəçevir şəhərinin su təchizatı və kanalizasiya sistemləri ötən əsrin 50-70-ci illərində yaradılmışdır. Mövcud infrastruktur 50 ildən çox müddətdə istismar olunduğundan tələbatı ödəmir. Mingəçevirin kanalizasiya şəbəkəsi isə şəhəri tam əhatə etmir. Yeni layihənin icrası tam başa çatdıqdan sonra Mingəçevir şəhər əhalisi 24 saat içməli su ilə təmin olunacaq, eyni zamanda bütün istehlakçılar kanalizasiya xidmətlərindən istifadə edə biləcəklər.

# Daşkəsən şəhərinin su və kanalizasiya infrastrukturlarının yenidən qurulması üzrə tender elan olunub

***"Azərsu" Açıq Səhmdar Cəmiyyəti Azərbaycan hökuməti və İslam İnkişaf Bankı tərəfindən birgə maliyyələşdirilən "Azərbaycanın 6 rayonunda milli su təchizatı və kanalizasiya proqramı layihəsi" çərçivəsində Daşkəsən şəhərinin içməli su təchizatı və kanalizasiya infrastrukturunun yenidən qurulması ilə bağlı tender elan etmişdir.***

"Daşkəsən şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi" Daşkəsən şəhərini və ətraf yaşayış məntəqələrini əhatə edir. Layihə Daşkəsən şəhəri ilə yanaşı rayonun Alunitdağ və Mədənçilər kəndlərinin, ümumilikdə 17 minə yaxın sakinin içməli su təchizatının və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanmışdır.

Daşkəsən şəhərini və ətraf kəndləri keyfiyyətli və dayanıqlı içməli su ilə təmin etmək üçün Qarainək və Gülbulaq su mənbələri seçilmişdir. Su mənbələrindən Daşkəsən şəhərinə qədər 21 km uzunluğunda magistral su kəməri çəkiləcək, şəhərin relyefi nəzərə alınmaqla müxtəlif ərazilərdə ümumi tutumu 4500 kubmetr olan 4 su anbarı tikiləcəkdir. Layihə çərçivəsində 18,3 km uzunluğunda paylayıcı su şəbəkəsi yaradılacaq, 2560 ünvana birləşmə veriləcəkdir.

Layihəyə uyğun olaraq Daşkəsən şəhərində kanalizasiya şəbəkəsi də yaradılacaqdır. Şəhərdə yaranan tullantı sularının optimal idarə edilməsi üçün 21 km uzunluğunda kanalizasiya xətti çəkiləcək və 2560 ünvan bu şəbəkəyə qoşulacaqdır. Gələcəkdə şəhərdə yaranacaq tullantı sularının təmizlənib zərərsizləşdirilməsi məqsədi ilə sutkalıq məhsuldarlığı 3500 kubmetr olan çirkab sutəmizləyici qurğu inşa ediləcəkdir.

# Tikinti işlərinin norma və qaydalara uyğun aparılması məqsədilə təlimlər keçirilmişdir

***"Azərsu" Açıq Səhmdar Cəmiyyəti Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarına uyğun olaraq bölgələrdə içməli su təchizatı və kanalizasiya infrastrukturlarının yenidən qurulması istiqamətində genişmiqyaslı layihələr həyata keçirir. Bu layihələr çərçivəsində mövcud su təchizatı və kanalizasiya sistemlərinin bərpası ilə yanaşı yeni infrastrukturlar yaradılır.***

Layihələrin vaxtında və keyfiyyətli icrasını təmin etmək üçün inşaat işlərinin tikinti norma və qaydalarına uyğun həyata keçirilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu məqsədlə mütəxəssislər mütəmadi olaraq təlim və treninqlərə cəlb olunur, onlar arasında geniş maarifləndirmə işləri aparılır. "Azərsu" ASC mütəxəssislərinin iştirakı ilə təşkil olunan təlimlərə podratçı təşkilatların əməkdaşları da dəvət olunur.

Cari ilin iyul-avqust aylarında bölgələrdə tikinti işlərinin norma və qaydalara uyğun aparılması məqsədi ilə təlimlər keçirilmişdir. Gəncə, Saatlı, Sabirabad, Qusar, Ağdaş və Göyçay şəhərlərində təşkil olunmuş təlimlərdə yerli sukanal idarələrinin əməkdaşları ilə yanaşı podratçı təşkilatların nümayəndələri də iştirak etmişlər.

Təlimlərdə tikinti-quraşdırma işlərinin texniki şərtlərə, tikinti norma və qaydalara uyğun aparılması ilə bağlı məlumatlar verilmişdir. Qeyd olunmuşdur ki, mütəmadi olaraq belə tədbirlərin keçirilməsi mütəxəssislərin peşəkarlığının yüksəldilməsinə xidmət edir.

# Tərtər şəhərində yeni içməli su və kanalizasiya infrastrukturu yaradılacaq

***2014-cü ilin sonuna qədər Tərtər şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi üzrə tikinti-quraşdırma işlərinə başlanılacaqdır. Azərbaycan hökumətinin İslam İnkişaf Bankı ilə birgə maliyyələşdirdiyi "Azərbaycanın 6 rayonunda Milli Su Təchizatı və Kanalizasiya Proqramı Layihəsi" çərçivəsində reallaşdırılacaq layihənin icrası ilə əlaqədar podratçı şirkətin seçilməsi məqsədilə tender elan edilmişdir.***

"Tərtər şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi" Tərtər şəhərini və ətraf kəndləri əhatə edir. 2035-ci ilədək inkişaf perspektivi nəzərə alınmaqla gələcəkdə layihədən 47 min nəfər faydalanacaqdır.

Layihəyə əsasən, rayon mərkəzini və ətraf kəndləri keyfiyyətli içməli su ilə təmin etmək üçün mənbə olaraq yeraltı sular seçilmiş və 9 ədəd subartezian quyusunun qazılması nəzərdə tutulmuşdur. Rayonun dayanıqlı su təchizatını təmin etmək məqsədi ilə uzunluğu 3,6 km olan magistral su xətti çəkiləcək və hər birinin tutumu 5000 kubmetr olan 2 ədəd su anbarı tikiləcəkdir. Şəhərdə mərkəzləşdirilmiş su təchizatı şəbəkəsinin yenidən qurulması məqsədilə 110 km uzunluğunda paylayıcı su xətti çəkilərək 2959 ünvana ev birləşməsi veriləcək və hər bir abunəçi ön ödənişli smart-kart sayğaclarla təmin olunacaqdır.

Layihəyə uyğun olaraq Tərtər şəhərində kanalizasiya şəbəkəsi də yaradılacaqdır. Şəhərdə yaranan tullantı sularının optimal idarə edilməsi üçün 104 km uzunluğunda kanalizasiya xətti çəkiləcək, 2672 baxış quyusu tikiləcək, 3944 ünvana birləşmə veriləcəkdir. Tullantı sularının kənarlaşdırılması məqsədilə 8,1 km uzunluğunda kanalizasiya kollektoru tikiləcəkdir.

Hazırda Tərtər şəhəri subartezian quyuları hesabına içməli su ilə təmin olunur. Şəhərin su təchizatı şəbəkəsi uzun illərdir istismar olunduğundan tələblərə cavab vermir, eyni zamanda şəhərin müəyyən bir hissəsini əhatə edir. Tərtər şəhərində kanalizasiya sistemi ümumiyyətlə mövcud olmamışdır. Yeni layihənin icrası tam başa çatdıqdan sonra Tərtər şəhərinin əhalisi fasiləsiz və dünya standartlarına uyğun keyfiyyətli içməli su ilə təmin olunacaq. Eyni zamanda şəhərdə yaranan tullantı suları mərkəzləşdirilmiş kanalizasiya sisteminə ötürüləcəkdir.

Qeyd edək ki, "Azərbaycanın 6 rayonunda milli su təchizatı və kanalizasiya proqramı layihəsi" çərçivəsində Tərtər şəhəri ilə yanaşı Astara, Daşkəsən, Qazax, Samux və Gədəbəy şəhərlərinin də su təchizatı və kanalizasiya infrastrukturlarının yenidən qurulması nəzərdə tutulur.

# "Azərsu" ASC-nin xidmət göstərdiyi abunəçilərin sayı 2,7 faiz artmışdır

2014-cü ilin ikinci rübündə "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin su təchizatı və kanalizasiya xidmətləri göstərdiyi abunəçilərin sayı 35 min və ya 2,7 faiz artmışdır. 01 iyul 2014-cü il tarixinə olan məlumata görə, "Azərsu" ASC-də 1282146 abunəçi içməli su və kanalizasiya xidmətlərinin istifadəçisi kimi qeydiyyata alınmışdır. İstehlakçıların 1235683-ü və ya 96,3 faizi əhali, 46463-ü və ya 3,6 faizi isə qeyri-əhali qrupu abunəçiləridir. 2014-cü ilin aprel, may və iyun ayları ərzində əhali qrupu abunəçilərinin sayı 2,5 faiz, qeyri-əhali qrupu abunəçilərinin sayı isə 10 faiz artmışdır.

01 iyul 2014-cü il tarixə "Azərsu" ASC-nin sayğacla təmin olunmuş abunəçilərinin sayı 714510-a çataraq sayğaclaşma səviyyəsi 55,6 faiz təşkil etmişdir. Hazırda əhali qrupu abunəçilərinin 54,6 faizi, qeyri-əhali qrupu abunəçilərinin isə 82,2 faizi sayğaclarla təmin olunmuşdur.

# Quraqlıq
## və ondan qorunma yolları

***Mütəxəsislərin proqnozlarına görə qarşıdakı 50 ildə suya tələbat 2 dəfə artacaq. Alimlərin fikrincə qlobal iqlim dəyişikliklərinin planetdə su balansına ciddi şəkildə təsir göstərməkdədir. Bu təsirlər daha çox yağıntıların qeyri-bərabər paylanması, quraqlıqla müşahidə olunur. Bu da planetin ən qlobal problemlərindən olan quraqlıqla mübarizə məsələsini yenidən aktuallaşdırır.***

Quraqlıq - yaz və yay aylarında yağıntının normadan çox aşağı və havada temperaturun normadan xeyli yüksək, rütubətliliyin isə minimum həddə olduğu uzunmüddətli bir dövrdür. Quraqlıqda torpaqdakı rütubət ehtiyatı buxarlanmaya və transpirasiyaya sərf olunaraq tükənir, bitkilərin normal inkişafı üçün şərait pisləşir. Nəticədə tarla, otlaq və biçənəklərdə məhsul azalır, yaxud tamamilə məhv olur.

Statistik məlumatlara görə yer kürəsi ərazisinin 85 %-inin quraqlığa məruz qalma ehtimalı vardır. Kənd təsərrüfatı baxımından quraqlıq uzun müddət yer səthinə yağıntıların düşməməsidir. Quraqlıq keçən dövrdə havanın temperaturu yüksək, nisbi rütubətliyi isə aşağı olur. Bununla əlaqədar olaraq kənd təsərrüfatı bitkilərinin suvarma suyuna olan tələbatını ödəmək məqsədi ilə suvarma rejimində dəyişikliklər aparılır, yəni suvarmaların sayı və suvarma norması artırılır.

Quraqlıq ən çox iqtisadi itkilər törədən fəlakətlərdən biridir və mövcud olan bütün təbii fəlakətlərdən zərərçəkənlərin sayına görə ən təhlükəli fəlakətlər sırasına daxildir. Quraqlıq dövrlərində taxıl ehtiyatları bir neçə dəfə azalır, buğdanın qiyməti isə azı 2 dəfə artır. Quraqlığın tüğyan etdiyi ölkələrdə yoxsulluq və aclıq təhlükəsi yaranır.

Quraqlıq təbii fəlakət sayılsa da onun vurduğu ziyanı minimuma endirmək mümkündür. Bunun üçün kompleks tədbirlər həyata keçirilməlidir. Sahələrdə su balansını nizama salmaqla tarlaları quraqlıqdan və quru isti küləklərdən, torpağın səthindəki münbit təbəqəni küləklər vasitəsi ilə sovrulmaqdan, yağış suları ilə yuyulub aparılmaqdan qorumaq işində tarlaqoruyucu ağacların əkilməsinin böyük faydası vardır. Tarlaqoruyucu meşə zolaqları küləyin sürətini azaldır, hərəkət edən havanın quruluğunu və istiqamətini bir qədər dəyişir, torpaqda nəmliyin saxlanılmasına, havada isə rütubətin artmasına təsir edir.

Tarlalarda torpağın nəmliyini artırmaq məqsədilə dondurma şumu və qış aratı aparılmalıdır. Səpinə qədər torpaqda normal nəmliyi saxlamaq üçün yumşaltma, alaq otları ilə mübarizə və dırmıqlama kimi aqrotexniki tədbirlər həyata keçirilməlidir.

Quraqlığa qarşı mübarizə məqsədilə düzənlik və dağətəyi bölgələrdə süni sututarlar (su anbarları, gölməçələr, su hovuzları) yaradılır. Güclü yağışlar yağan dövrlərdə çaylarda daşqınların qarşısını almaq və eyni zamanda, su ehtiyatı yaratmaq məqsədilə sel suları bu cür sututarlarda toplanılır və quraqlıq vaxtlarda kənd təsərrüfatı bitkilərinin suvarılması məqsədi ilə istifadə edilir. Suvarma torpaqda çatışmayan nəmliyi tamamlayır və lazımi dərəcəyə çatdırır, eyni zamanda torpağın münbitliyini yüksəldir, suvarılan ərazidəki mikroiqlimi yaxşılaşdırır, torpağın fiziki-kimyəvi, istilik və bioloji xüsusiyyətlərini əlverişli istiqamətdə dəyişdirir, bunların nəticəsində isə bitkilərin inkişafına müsbət təsir göstərməklə məhsulu artırır. Quraqlıq dövründə aparılan suvarma zamanı günəş enerjisinin çox hissəsi havanı qızdırmağa yox, əkin sahəsindən olan fiziki buxarlanmaya və bitkilərlə transpirasiyaya sərf edilir. Bunun nəticəsi olaraq suvarılan sahə üzərində havanın temperaturu aşağı düşür, nisbi rütubəti isə yüksəlir. Bununla da torpağın deqradasiyasının və səhralaşmasının qarşısı qismən də olsa alınır.